AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

28 MART 2018-ci il ÇƏRŞƏNBƏ № 67 (6100) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışı olub

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib*









**Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Bona Dea Beynəlxalq Hospitalının baş icraçı direktoru Faiq Əliyev və baş həkim Musa Abbasov dövlətimizin başçısına və birinci xanıma bu tibb müəssisəsi barədə məlumat verdilər. Bildirildi ki, hospital tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən az sayda müalicə ocaqlarından biridir.

Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalda yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bina stasionar və diaqnostik hissələrdən ibarətdir. Stasionar hissə yeddimərtəbəli, diaqnostik hissə isə dördmərtəbəlidir. Hospitalda ürək-damar cərrahiyyəsi, invaziv-kardiologiya, mama-ginekologiya, neonatologiya, pediatriya, təcili tibbi yardım, reanimasiya, süni mayalanma, ümumi cərrahiyyə, ortopediya-travmatologiya, neyrocərrahiyyə, qulaq, burun və boğaz xəstəlikləri, göz xəstəlikləri, urologiya, anesteziologiya, daxili xəstəliklər, qastroenterologiya, nevrologiya, şüa diaqnostikası, tibbi laboratoriyalar, onkologiya, stomatologiya, qan bankı, fizioterapiya-reabilitasiya, mərkəzi sterilizasiya kimi bütün əsas tibbi xidmət sahələri fəaliyyət göstərəcək. Hospital 206 çarpayılıqdır. Təcili tibbi yardım şöbəsi isə 12 yerlikdir.

Dövlətimizin başçısı və xanımı burada çalışan xarici həkimlərlə görüşdülər, onlarla söhbət etdilər.

Hospitalda ümumilikdə 850 nəfərdən ibarət tibbi heyətin işləyəcəyi nəzərdə tutulur. Onlardan 22 həkim və 30 orta tibb heyəti Avropadan dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislərdir. Bu mütəxəssislər dünyada öz sahələri üzrə məşhur olan tanınmış tibb işçiləridir. Burada çalışan tibb mütəxəssisləri arasında ABŞ, Kanada, Avstraliya, Almaniya, İtaliya, Fransa, Belçika, Niderland, Xorvatiya, Serbiya, Yunanıstan, İspaniyadan olan yüksək peşəkar həkimlər var.

Pediatriya və neonatologiya şöbəsində azyaşlıların müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ümumi pediatriya, genetik konsultasiya, pediatrik nevrologiya, kardiologiya və cərrahiyyə xidmətləri göstəriləcək. Şöbədə, eyni zamanda, qabaqcıl laparoskopik prosedurlar da icra olunacaq.

Hospitalın şüa diaqnostika-radiologiya şöbəsi də ən müasir tibbi avadanlıqla təchiz olunub. Rentgen, MRT, kompüter tomoqrafiya və ultrasəs müayinəsi avadanlığının quraşdırıldığı şöbə çoxmetodlu diaqnostik və müdaxiləvi vizualizasiya xidmətlərini təklif edir. Burada xəstələrə rəqəmsal radioqrafiya, rəqəmsal flüoroskopiya və digər xidmətlər də göstəriləcək.

Diqqətə çatdırıldı ki, müəssisənin kliniki laboratoriya şöbəsi bütün xəstələri həftənin və sutkanın istənilən vaxtı hərtərəfli müayinələr və qan bankı xidmətləri ilə təmin edir. Burada müxtəlif laborator müayinələr aparmaq üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri yüksək keyfiyyət və dəqiqliklə, həmçinin qısa müddətdə icra etməyə imkan yaradır. Laboratoriyanın məlumat sistemi xəstəxananın məlumat sistemi ilə əlaqəlidir. Kliniki kimyəvi laboratoriyada tamamilə avtomatlaşdırılmış nəzarət sistemi mövcuddur.

Son illərdə ölkəmizdə həyata keçirilən dövlət siyasətində səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqət və nəzarətindədir. Vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı çox mühüm işlər görülür.

Bu gün Azərbaycanda səhiyyənin inkişafına, bu sahədə əsaslı islahatların aparılmasına Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun dəstəyi ilə ölkəmizdə çoxlu sayda tibb ocaqları inşa olunub, mövcudları isə müasir səviyyədə yenidən qurulub. Bu layihələrin icrası zamanı səhiyyə müəssisələri dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlığı ilə təchiz olunur.

Bildirildi ki, Bona Dea Beynəlxalq Hospitalında helikopterlərin enməsi üçün meydança da yaradılıb.

Hospitalın ən müasir tələblərə cavab verən konfrans zalında müxtəlif toplantılar, iclas, görüş, müşavirə və digər tədbirlər təşkil etmək, həmçinin peşəkar həkimlərin gənc mütəxəssislərə təlimlər keçmələri üçün də hər cür şərait mövcuddur. Ümumi tutumu 145 yerlik olan bu zalda cərrahi əməliyyatları birbaşa izləmək mümkündür.

Dövlətimizin başçısı konfrans zalında hospitalda çalışan xarici həkimlərlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV:** Siz burada güclü tibb mərkəzi qurmağa kömək göstərirsiniz. Sizi Bakıda görməyə çox şadam. İndi bizim yüksək səviyyəli avadanlığımız və həkimlərimiz var. Bizə lazım olan məhz budur - avadanlıq və tibbi xidmət. Mənə məlumat verilib ki, siz regionda, düşünürəm, ən yaxşı tibb mərkəzlərindən birini, bəlkə də ən yaxşısını yaratmağa kömək etmək üçün xəstəxana ilə sıx şəkildə işləyirsiniz.

Azərbaycan Prezidentinə və birinci xanıma məlumat verildi ki, palatalarda xəstələrin müalicəsinin yüksək səviyyədə təşkili üçün bütün zəruri şərait yaradılıb. Tibb müəssisəsinin qarşısına qoyduğu əsas məqsədlərdən biri də xəstələri səhiyyənin yüksək standartları ilə təmin etməklə yanaşı, müalicənin bütün mərhələləri üzrə innovasiyaların tətbiqidir. Bu məqsədlə burada quraşdırılan və İKT-nin yeniliklərinə əsaslanan qurğular xəstələrin müalicəsinin yüksək səviyyədə təmin olunmasına imkan verir.

Hospitalın əməliyyat bloku da texniki təminatına görə mövcud olan bütün dünya standartlarına tam cavab verir. Tibb müəssisəsində 10 əməliyyatxana, 2 angioqrafiya otağı yaradılıb. Ümumilikdə burada fəaliyyət göstərən Cərrahiyyə Xidmətlər Klinikasında laparoskopik prosedurlar, açıq cərrahiyyə və digər cərrahi əməliyyatlar aparılacaq.

Beynəlxalq hospitalın ürək-damar cərrahiyyəsi şöbəsi ən müasir qeyri-invaziv və invaziv diaqnostik avadanlıqla təchiz edilib. Burada açıq ürək cərrahiyyəsini yerinə yetirmək mümkündür. Bundan başqa, şöbədə ürək çatışmazlığı, anadangəlmə ürək xəstəliyi cərrahiyyəsi və digər əməliyyatlar yerinə yetirilir. Əməliyyatxanada quraşdırılan avadanlıq bu sahədə dünyanın aparıcı şirkətlərinin məhsullarıdır. Hospitalda ümumilikdə 70-dən artıq tibbi avadanlıq inteqrasiya olunub ki, bu da vahid mərkəzdən idarəetmənin təmin edilməsinə şərait yaradır.

Tibb müəssisəsinin ümumi reanimasiyası 28, neonatoloji reanimasiyası 10, kardioloji reanimasiyası isə 8 çarpayılıqdır. Xəstələrin rahatlığı üçün reanimasiya otaqları bir-birindən ayrı təşkil olunub. Bu şöbədə də tibbin son nailiyyətlərinə əsaslanan avadanlıq quraşdırılıb. Bir sözlə, hospitalın bütün şöbələrində quraşdırılan son model tibb avadanlığı və qurğuları xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir, onların müayinə və müalicəsini, profilaktik işləri müasir tələblər səviyyəsində qurmaq üçün geniş şərait yaradır. Xəstəxanada ən müasir səviyyədə prenatal diaqnostik avadanlıq var. Hospital Avropanın məşhur tibbi və paramedikal heyəti ilə işləyir, aparıcı tibb institutları ilə əməkdaşlıq edir. Burada fəaliyyət göstərən aptekdə bütün dərmanlar elektron-reseptdən istifadə edilərək, həkimin cavabdehliyi altında təyin olunur, qapalı və nəzarət edilən avtomatlaşdırılmış paylanma kabinetlərində paylaşdırılır.

Xəstəxanadakı tibbi avadanlıq ABŞ, Almaniya, Yaponiya, İtaliya, Fransa, İngiltərə, İsveç, Belçika və İspaniyanın aparıcı şirkətlərinin istehsalıdır. Onların arasında "Getinge Group", "MAQUET", "Siemens", "Drager", "Hill-Room", "Olympus", "Aesculap", "Karl Storz", "Sirona", "Agoko", "Abbott", "BioMerieux", "B-Braun", "Swisslog", "ZEISS" və s. müasir tibbi avadanlığın istehsalı üzrə ixtisaslaşan tanınmış şirkətlərin məhsulları var. Bu avadanlıq müayinəni dəqiqliklə yerinə yetirməyə, eyni zamanda, müalicə işini yüksək səviyyədə qurmağa imkan yaradır.

Tibb ocağında texnoloji yeniliklər tətbiq olunub. Burada yaradılan pnevmo-poçtla müxtəlif şöbələrə, o cümlədən qəbul və laboratoriya şöbələrinə analiz nümunələri, xəstələr üçün isə dərmanlar göndərmək mümkündür. Hospital tibbi xidmətlər üzrə dünyada ən nüfuzlu keyfiyyət və təhlükəsizlik standartları olan JCI standartlarına uyğun layihələndirilib və qurulub. Tibbi heyətin və xəstələrin qidalanması üçün müəssisənin mətbəxində müasir avadanlıq quraşdırılıb, yeməkxanada lazımi şərait yaradılıb.

Diqqətə çatdırıldı ki, hospitalın binasının ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri binanın bütün ərazisini əhatə edir. Tibb ocağı fasiləsiz elektrik enerjisi ilə təmin olunur. Binada 2500 kilovoltluq UPS dəstəyi, 7000 kilovoltluq transformator quraşdırılıb.

Ölkəmizdə səhiyyənin müasirləşdirilməsi istiqamətində son illər icra olunan layihələrin tərkib hissəsi kimi yeni hospitalın istifadəyə verilməsi də vətəndaşların sağlamlığının təmin edilməsi, profilaktik tədbirlərin görülməsi, müayinə və müalicənin yüksək səviyyədə təşkil olunması işinə yeni imkanlar açır.

Bona Dea Beynəlxalq Hospitalında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivi ilə görüşdülər.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Mən sizi ürəkdən salamlayıram və təbrik edirəm.

Bu gün Bakıda gözəl xəstəxana açılır. Bu, çox gözəl, əlamətdar hadisədir. Xəstəxana çox gözəl təəssürat bağışlayır, həm xarici görünüşü, həm də daxili tərtibatı ən yüksək səviyyədədir. Burada ən müasir avadanlıq quraşdırılıb. Əminəm ki, xəstəxanada vətəndaşlara çox yüksək tibbi xidmət göstəriləcək.

Mən xəstəxana ilə tanış olarkən görürəm ki, çox böyük işlər görülüb. Bütün işlər ən yüksək səviyyədə təşkil edilib. Bu xəstəxana xarici mütəxəssislərin dəstəyi ilə ərsəyə gəlib. Əminəm ki, burada çalışan həkimlər, tibbi heyət xəstələrə yüksək xidmət göstərəcəklər. Mənə verilən məlumata görə, burada 800-dən çox iş yeri yaradılır. Həkimlər, tibbi heyət üçün burada gözəl şərait yaradılıb.

Bu xəstəxananın açılması ölkəmizin ümumi inkişafının göstəricisidir. Ancaq sürətli inkişaf edən ölkələrdə belə gözəl tibb ocaqları yaradılır. Hesab edirəm ki, bu xəstəxana nəinki Azərbaycanın, regionun ən qabaqcıl xəstəxanalarından biri olacaq, bəlkə də birincisi olacaq. Ümid edirəm ki, gün gələcək və turistlər Azərbaycana həm də tibbi xidmət almaq üçün gələcəklər. Yəni, bu xəstəxanada yaradılan şərait belə imkanları təmin edir. Burada Azərbaycan vətəndaşlarına yüksək tibbi xidmət göstəriləcək. Ölkəmizə gələn qonaqlar da, əminəm ki, bu imkanlardan istifadə edəcəklər.

Son illərdə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. Biz səhiyyə sisteminin maddi-texniki bazasını böyük dərəcədə gücləndirə bilmişik. Təkcə bu il altı şəhərdə yeni xəstəxana tikiləcək. Beləliklə, Azərbaycanın hər bir şəhərində ən yüksək tibbi şərait yaradılır. Altı yüzdən çox xəstəxananın, tibb müəssisəsinin yaradılması, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır.

Səhiyyə sisteminin təkmilləşdirilməsi bizim üçün prioritet məsələdir. Çünki insan sağlamlığı hər bir cəmiyyət, hər bir dövlət üçün əsas məsələdir. Son illər ərzində görülmüş işlər nəticəsində insanların ömrünün uzunluğu artır və bu, gözəl göstəricidir. Bu gün Azərbaycanda istənilən xəstəlik müalicə oluna və onun diaqnostikası aparıla bilər.

**(davamı 2-ci səhifədə)**

# Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışı olub

## Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib






(əvvəli 1-ci səhifədə)

Yəni, diaqnostik müayinə, müalicə - bütün bunlar kompleks şəkildə təmin edilir. Bir məsələni də xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Bir neçə ildir ki, Azərbaycanda dövlət tərəfindən pulsuz tibbi müayinə həyata keçirilir. Hər il beş milyon Azərbaycan vətəndaşı bu xidmətdən istifadə edir. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə bu məsələ öz həllini tapmağa başlamışdır. Hazırda növbəti tibbi müayinə davam edir.

Beləliklə, Azərbaycanda sosial sahənin əsas istiqaməti olan səhiyyənin inkişafı üçün çox böyük işlər görülür. Xəstəxanalar tikilir, avadanlıq ən müasir standartlara cavab verir, tibbi xidmətin səviyyəsi artır və belə gözəl əsərlər yaradılır. Həmçinin bu xəstəxanada müalicə işində xarici mütəxəssislər də iştirak edəcəklər. Mənə məlumat verildi ki, daim burada Avropadan, digər ölkələrdən yüksək biliklərə malik olan mütəxəssislər işləyəcəklər. Mən çıxışımın qalan hissəsini ingilis dilində davam etdirəcəyəm.

Mən, həmçinin hələ Azərbaycan dilini başa düşməyənlərə, xüsusilə də əcnəbi qonaqlarımıza müraciət etmək, belə dərin təəssürat doğuran tibb mərkəzinin yaradılmasına verdikləri töhfəyə görə onlara minnətdarlığımı bildirmək istərdim. Artıq qeyd etdiyim kimi, düşünürəm




ki, bu, təkcə Azərbaycanda deyil, regionda ən yaxşı tibb mərkəzidir. Yəqin ki, vaxt gələcək biz tibbi turizmin də Azərbaycana gəlməsinin şahidi olacağıq. Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır. Ümidvaram ki, bizə tibbi məqsədlər üçün gələn turistlər də olacaq.

Çox şadam ki, bu xəstəxanada əcnəbi və yerli mütəxəssislərin fəaliyyətlərinin çox mühüm vəhdəti var. Həmçinin düşünürəm ki, xəstəxananın ən mühüm fəaliyyət sahələrindən biri yerli tibbi heyətin hazırlanması və təlimi olacaq. Fikrimcə, müalicə, diaqnostika və təlimin vəhdəti bu xəstəxananı çox xüsusi edəcək. Əlbəttə ki, zənnimcə, digər ölkələrdən olan qonaqlarımızın, yüksək səviyyəli mütəxəssislərin bu prosesdə fəal iştirakı daha çox pasiyent cəlb edəcək.

Tanışlıq zamanı mən bildirdim ki, biz hazırda Bakıda müasir avadanlıqla təchiz olunmuş və çox yüksək tibbi xidmət göstərən dünya səviyyəli tibb mərkəzinin olması ilə bağlı Azərbaycan əhalisini məlumatlandırmalıyıq. Burada hər növ müalicə, ən mürəkkəb əməliyyatlar həyata keçiriləcək və bu, Azərbaycan xalqının mənafeyinə xidmət edəcək.

Belə böyük xəstəxananın yaradılması, həmçinin ölkəmizin sürətli inkişafını əks etdirir. Biz sosial sahəyə, xüsusilə səhiyyə sahəsinə çox böyük diqqət ayırırıq. Son illər ərzində biz yüzlərlə yeni xəstəxana və tibb mərkəzini tamamilə yenidən qurmağa və tikməyə müvəffəq olmuşuq. Lakin bu, əlbəttə ki, nadir tibb mərkəzidir.

Tanışlıq məndə çox dərin təəssürat yaratdı. Düşünürəm ki, burada sizdə olanların hamısı mənə göstərilib. Sizi bu nailiyyət münasibətilə təbrik etmək istərdim. Sizə uğurlar arzu edirəm. Bizim beynəlxalq və yerli komandamıza uğurlar arzu edirəm. Əminəm ki, buraya müalicə üçün gələnlər evlərinə sağlam qayıdacaqlar. Təşəkkür edirəm və sizi təbrik edirəm.

* * *

**Bona Dea Beynəlxalq Hospitalının idarə heyətinin üzvü Herviq FLİRAKERS dedi:**

- Mənim adım Herviqdir. Mən Bona Dea Beynəlxalq Hospitalının idarə heyətinin üzvüyəm. Təntənəli açılış münasibətilə bizə baş çəkdiyinizə görə Sizə və xanımınıza təşəkkürümüzü bildirmək istərdik.

Siz ən müasir mərkəz, analoqu olmayan avadanlıq gördünüz. Lakin biz, həmçinin xəstəxanada fəaliyyət göstərmək üçün ən müasir və analoqu olmayan komanda yaradırıq. Bizim müxtəlif akademik institutlar və sənaye tərəfdaşlarımızla beynəlxalq əməkdaşlığımız sayəsində ən yüksək səviyyəli səhiyyə xidmətini Bakıya gətirə biləcəyik. Biz, həmçinin yeni tibbi texnologiyalar təqdim edə biləcəyik. Biz Sizə təminat veririk ki, bütün bunlar Azərbaycan xalqının sağlamlığına xidmət edəcək. Biz komanda olaraq Sizə təminat veririk.



* * *

Sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalın təcili tibbi yardım şöbəsi ilə də tanış oldular.

Məlumat verildi ki, təcili tibbi yardım şöbəsi də ən müasir səviyyədə qurulub. Şöbə xəstələrin rahat və təcili daşınmasına imkan verən nəqliyyat vasitələri ilə təmin edilib. Təcili tibbi yardım şöbəsi Azərbaycanda ilk dəfə olaraq "Mercedes-Benz" markalı ən yeni model iki reanimobil və bir transporter avtomobili ilə təchiz edilib. Azərbaycanın istənilən regionunda operativ və fasiləsiz təcili tibbi yardım göstərmək üçün briqada qısa müddət ərzində özünü çağırış yerinə çatdırmaq iqtidarındadır.

Hospitalla tanış olan dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivinə uğurlar arzuladılar.

**AZƏRTAC**

## Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında cəmi 824 şagird yerlik modul tipli 12 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 172 000 (dörd milyon yüz yetmiş iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 mart 2018-ci il.**

*Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında quraşdırılacaq modul tipli məktəblərin siyahısı qəzetin 3-cü səhifəsində dərc olunur.*

## "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 12, maddə 974; 2006, N 6, maddə 480; 2007, N 5, maddə 401; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 837-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci maddənin adından, 5.1-ci və 5.3-cü maddələrdən "pensiyaların baza hissəsinin," sözləri çıxarılsın.

**2.** 5.4-cü maddədən "və pensiyaların baza hissəsi" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2018-ci il.**

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 9, N 8, maddə 598, N 9, maddə 668; 2007, N 4, maddə 320, N 5, maddə 446, N 7, maddə 712, N 11, maddə 1078; 2008, N 6, maddə 470, N 7, maddə 608; 2010, N 7, maddə 590; 2011, N 4, maddə 266, N 11, maddə 982; 2012, N 6, maddə 521; 2014, N 2, maddə 84; 2015, N 5, maddə 491) 73.7-ci maddəsində "Pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş Konstitusiya Məhkəməsinin" sözləri "Konstitusiya Məhkəməsinin hakiminin," sözləri ilə əvəz edilsin:

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2018-ci il.**

## Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət-din münasibətləri sahəsində fəaliyyətin tənzimlənməsi, mövcud dini konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun qarşısında başlıca vəzifə kimi müəyyənləşdirilmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətinin təşkili məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Mənəvi Dəyərlərin Təbliği Fonduna 6100,0 min (altı milyon yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 mart 2018-ci il.**

## "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1026-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1026-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 mart 2018-ci il.**

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1027-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1027-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 mart 2018-ci il.**

# ABŞ-ın Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatır

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması münasibətilə ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfir Robert Sekuta fəaliyyət müddəti ərzində Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəmədiyini deyib.

Nazir Elmar Məmmədyarov iki ölkə arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə Robert Sekutaya təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə iki ölkə arasında enerji, iqtisadiyyat, ticarət, terrorizmə qarşı mübarizə, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

**AZƏRTAC**

# Mərkəzi Seçki Komissiyasında MDB PA-nın ekspert qrupu ilə görüş olub

**Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərinin uzunmüddətli müşahidəsi üzrə ekspert qrupu martın 27-də Mərkəzi Seçki Komissiyasında (MSK) sədr Məzahir Pənahovla görüşüb.**



MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan sədr seçkilərdə şəffaflığın təmin olunması baxımından müşahidəçilik institutunun böyük əhəmiyyət kəsb etdiyini bildirib və MDB Parlament Assambleyasından olan uzunmüddətli müşahidəçilərin qarşıdan gələn seçkiləri izləməsindən məmnun olduğunu vurğulayıb.

Qrupun rəhbəri, MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarının monitorinqi üzrə Beynəlxalq İnstitutunun direktoru Dmitri Qladey bildirib ki, rəhbərlik etdiyi qrup müxtəlif ölkələrin nüfuzlu ekspertlərindən təşkil olunub. Qrupun məqsədi Azərbaycanda prezident seçkilərinə hazırlığın vəziyyəti ilə tanış olmaq və aparılan müşahidələrin nəticəsi olaraq hesabat hazırlamaqdır.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qonaqların xahişi ilə aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər də daxil olmaqla, həyata keçirilmiş genişmiqyaslı maarifləndirmə layihələri, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində atılmış addımlar və seçkilərə son hazırlıq işlərindən danışıb, beynəlxalq müşahidəçiləri maraqlandıran sualları cavablandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Gənclər və idman naziri Mingəçevirdə vətəndaşları qəbul edib

**Martın 27-də Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində Mingəçevir, Yevlax, Ağdaş, Ağsu, Bərdə, Göyçay, Kürdəmir, Tərtər, Ucar, Zərdab şəhər və rayonlarında yaşayan vətəndaşları qəbul edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda ümumilikdə 20-dən çox müraciətə baxılıb. Müraciətlər gənclər, idman və digər sahələri əhatə edib.

Gənclər sahəsi ilə bağlı müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti ilə bağlı olub.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və digər məsələləri əhatə edib.

Bir sıra müraciətdə qaldırılan məsələlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Beyləqan Olimpiya İdman Kompleksinin təməli qoyulub

**Martın 27-də Beyləqanda Olimpiya İdman Kompleksinin təməli qoyulub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, təməlqoyma mərasimində gənclər və idman naziri Azad Rəhimov, rayon icra hakimiyyətinin başçısı Vaqif Abdullayev, Milli Məclisin deputatı Şahin İsmayılov və digər rəsmi şəxslər iştirak ediblər.



Nazir Azad Rəhimov çıxışında bildirib ki, hazırda ölkəmizdə 43 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Bir müddət bundan əvvəl Tərtərdə sayca 44-cü Olimpiya İdman Kompleksinin təməli qoyulub. Həmçinin Goranboy və Neftçala rayonlarında da Olimpiya İdman kompleksləri tikilir. Yardımlı rayonunda da idman kompleksinin inşası davam etdirilir. Bu il isə Lənkəran Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi planlaşdırılır.

Beyləqan Olimpiya İdman Kompleksinin tikintisi Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulub. Prezident İlham Əliyevin Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında 2018-ci il 23 mart tarixli Sərəncamı ilə vəsait ayrılıb. Kompleks Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən şəhər stadionunun ərazisində ayrılmış 2,61 hektar torpaq sahəsində tikilir.

Beyləqan Olimpiya İdman Kompleksində 1000-ə yaxın tamaşaçı tribunası olan, müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal idman, güləş, boks, qrup məşqləri və trenajor zalları, 180 tamaşaçı tribunası və 24x12 ölçüdə üzgüçülük hovuzu olan zal inşa olunacaq.

Bundan əlavə, sayca 45-ci olan kompleksdə 18 standart, 2 VİP otaqlar olmaqla, 40-50 nəfərlik mehmanxana, restoran, mətbəx, internet klub, konfrans zalı, sauna, masaj, həkim, məşqçilər üçün otaqlar və inzibati otaqlar yaradılacaq. Hər bir idman zalı üçün ayrı-ayrılıqda soyunub-geyinmə, sanitar qovşaq və duş otaqları nəzərdə tutulub. Fiziki imkanları məhdud olan tamaşaçıların və idmançıların kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün bütün zəruri şəraitin yaradılması planlaşdırılıb.

Beyləqan Olimpiya İdman Kompleksinin baş planına əsasən ərazidə 1250 nəfərlik tamaşaçı tribunası olan futbol stadionu, süni örtüklü qaçış zolağı, mini-futbol meydançası, həmçinin enerji təchizatını təmin etmək üçün transformator yarımstansiyası, generator məntəqəsi, istilik qazanxanası və nasosxana binası, içməli və yanğına qarşı ehtiyat su anbarları da inşa ediləcək.

**AZƏRTAC**

# BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın da təmsil olunduğu təşəbbüs qrupunun irəli sürdüyü qətnamə qəbul edilib

**BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş 37-ci sessiyası çərçivəsində Azərbaycanın Braziliya, Çili, Danimarka, Ekvador, Fici, Kanada, Lüksemburq, Portuqaliya, Ruanda, Syerra Leon, Tailand və Uruqvay ilə birgə irəli sürdüyü daha bir sənəd - "İnsan hüquqlarının təşviqi və müdafiəsi və Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi" adlı qətnamə Şuranın üzvləri tərəfindən yekdilliklə qəbul edilib. Qətnaməyə 69 ölkə həmmüəllif qismində qoşulub.**




Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qətnamənin əsas məqsədi insan hüquqlarının təşviqi və müdafiəsi ilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi arasında mövcud olan qarşılıqlı əlaqələrin vurğulanması və BMT-nin üzv ölkələrinin bu sahədə əldə etdikləri müsbət təcrübələrini bölüşmələri üçün müvafiq platformanın yaradılması olub. Bu xüsusda, qətnaməyə əsasən 2018-ci və 2019-cu illərdə Cenevrədə BMT-nin üzv ölkələrinin illik görüşlərinin təşkil edilməsi planlaşdırılır. Sözügedən görüşlərin nəticələri barədə Cenevrədə yerləşən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən hazırlanacaq hesabatların İnsan Hüquqları Şurasına və Nyu-Yorkda hər il keçirilən Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə Yüksək Səviyyəli Siyasi Foruma təqdim edilməsi nəzərdə tutulur.

BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın və yuxarıda adları sadalanan ölkələrin birgə səyləri nəticəsində qeyd edilən qətnamənin qəbulu Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun, eləcə də milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının və insan hüquqlarının müdafiəsinin təmin edilməsi üzrə zəngin təcrübəyə malik ölkə kimi qəbul edilməsinin əyani göstəricisidir.

**AZƏRTAC**

*Oleq Kuznetsov:*

# Multikulturalizm mövzusu Azərbaycan üçün formal məsələ deyil

**Azərbaycan dünyada sayca çox olmayan o ölkələrdəndir ki, onlar üçün multikulturalizm dövlət təbliğatının elementi deyil, dövlət siyasətinin elementidir. Müasir dünyada multikulturalizm fəlsəfəsinin müxtəlif şəkildə yozulduğunu göstərən nümunələr çoxdur. Məsələn, Qərbi Avropada multikulturalizmin əsas ideyası şəxsiyyəti heçə endirmək, onu fərddən ortabab insana çevirmək, ona hansısa süni dəyərləri və ya davranış qaydalarını zorla qəbul etdirməkdir.**

Azərbaycanda isə multikulturalizm tamamilə təbii dəyərdir. Onun əsas ideyası şəxsiyyətin öz imkanlarını maksimum reallaşdırmasına şərait yaratmaqdır. Multikulturalizmin Azərbaycan və Avropa modelləri arasında əsas prinsipial fərq məhz bundan ibarətdir.

Tarix elmləri üzrə fəlsəfə doktoru, siyasi analitik Oleq Kuznetsov Bakıda keçirilən "Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-1920" mövzusunda beynəlxalq konfrans çərçivəsində AZƏRTAC-a verdiyi müsahibədə bu barədə danışıb.

Oleq Kuznetsov qeyd edib ki, multikulturalizm mövzusu Azərbaycan üçün formal yox, təbii məsələdir. Bunu sübut etmək üçün bir faktı göstərmək kifayətdir ki, Azərbaycanda hər il multikulturalizm ideyası ilə, multikulturalizm dəyərlərinin təbliği ilə bu və ya digər şəkildə bağlı olan çoxsaylı tədbirlər keçirilir.

Oleq Kuznetsov deyib: "Bu da müsbət haldır ki, Azərbaycanda bir neçə elmi mərkəzdə, o cümlədən mənim də əməkdaşlıq etdiyim Azərbaycan Dillər Universitetində yaradılmış mərkəzdə həm multikulturalizm ideyaları öyrənilir, həm də multikulturalizmin Azərbaycan modelinin bütün dünyada anlaşıqlı və əlyetərli olması üçün güclü nəzəri baza yaradılır. Bu, çox müsbət haldır, ona görə ki, bu yolla elə həmin Qərb ideologiyasının, Qərb təbliğatının müəyyən intellektual alternativi yaradılır. Bu, həm də Azərbaycan cəmiyyətinin öz daxili qanunları üzrə inkişaf etməsinə, özünün milli maraqlarını nəzərə almasına imkan verir".

**AZƏRTAC**

# İndiyədək MSK-da 383 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib

**İndiyədək Mərkəzi Seçki Komissiyasında (MSK) 383 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Onlar 37 beynəlxalq təşkilatı təmsil etməklə 49 ölkənin vətəndaşlarıdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə sechki-2018.az saytına MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib.

O qeyd edib ki, indiyədək 53 min 366 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1139-u MSK-da, 52 min 227-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçib.

Şahin Əsədli əlavə edib ki, bütün bunlarla yanaşı, siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına 4909 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

**AZƏRTAC**

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 27 mart tarixli Sərəncamına Əlavə*

# Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Biləsuvar rayonu Muğankənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 2 | Neftçala rayonu Mirzəqurbanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 3 | Neftçala rayonu Qaraqaşlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Neftçala rayonu Eldar Rəhmanov adına Aşağı Surra kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 5 | Neftçala rayonu Rövşən Babayev adına Xoltəzəkənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Neftçala rayonu Xolqaraqaşlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 7 | Neftçala rayonu Qazaxbərəsi kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 8 | Neftçala rayonu Pirəbbə kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 9 | İmişli rayonu Muradxanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 10 | Saatlı şəhər 1 nömrəli 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 11 | Beyləqan rayonu, Əhmədli kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 12 | Beyləqan rayonu Gödəklər kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| | **Cəmi** | **4 172 000** |

*XİN:*

# Ermənistanın Azərbaycana məxsus maddi-mədəni irsin məhv edilməsi siyasəti ümumbəşəri sivilizasiyaya qarşı vəhşilikdir

**Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz siyasətinin tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrinin və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi sistematik vandalizm siyasəti yürüdülür. Ermənistanın işğal olunmuş ərazilərimizdə və tarixi Azərbaycan torpaqları olan Ermənistan ərazisində Azərbaycan xalqına məxsus maddi-mədəni irsin məhv edilməsi siyasəti yalnız Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri sivilizasiyaya qarşı vəhşilikdir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsinin açıqlamasına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi mətbuata verdiyi açıqlamasında dolayı yolla özü bunu etiraf edir, işğalçı dövlət kimi Ermənistanın daşıdığı beynəlxalq məsuliyyəti gizlətməyə çalışır. Buna baxmayaraq, işğal olunmuş ərazilərimizdə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrinin Ermənistan tərəfindən dağıdılması, talan və məhv edilməsi halları dəqiqliklə müəyyən olunub.

Beləliklə, işğal olunmuş ərazilərimizdə Ermənistan tərəfindən 738 tarixi abidə, 83500-dən çox eksponata malik 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə kompleksi və 1107 mədəniyyət müəssisəsi daxil olmaqla, 1891 maddi-mədəniyyət resursu talan edilib və vandalizm obyektinə çevrilib. Cəbrayıl rayonunda XVII əsrə aid məscid kompleksi, Şuşa şəhərində XVIII əsrə aid Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri, XIX əsrə aid Ağdam məscidi nəinki dağıdılıb və talan edilib, donuz və mal-qara yerləşdirməklə tövlə edilib və təhqir obyektinə çevrilib. Həmçinin Şuşa şəhərində Vaqifin Mavzoleyi, Natəvanın evi, karvansaray kimi arxeoloji abidələr dağıdılıb və talan edilib.

İşğal olunmuş Xocalı, Kəlbəcər, Laçın, Xocavənd və digər rayonlarda yerləşən və erməni kilsəsinə heç bir aidiyyəti olmayan tarixi Alban xristian kilsələrinin mülkiyyəti mənimsənilib, arxitektura xüsusiyyətləri dəyişdirilərək erməni kilsə abidələri kimi təqdim edilir. Kəlbəcər rayonu ərazisində yerləşən orta əsrlərə aid Gəncəsar və Xudavəng alban xristian kilsələri xüsusilə qeyd edilməlidir. 2003-cü ildən etibarən Azıx mağarasında və Ağdam ətrafında qeyri-qanuni arxeoloji qazıntılar aparılır.

Ermənistan ərazisində tarixi Azərbaycan torpaqlarında Azərbaycan xalqına məxsus mədəni irs də eyni aqibəti yaşayır. Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə "yenidən təmir edilib". Dağıdılmış arxitektura abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi, "Sərdar sarayı" və ya "Xan sarayı" adlı saraylar kompleksi də var. Yerevandakı Sərdar məscidi də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib.

Mədəniyyət və Turizm Nazirliyi və Xarici İşlər Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı müfəssəl hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, İSESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim olunub.

Görülən işlərin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində İslam dininə aid tarixi və mədəni irsin və məbədlərin dağıdılması və təhqir edilməsi barədə mütəmadi əsasda qətnamələr qəbul edilir. Sonuncu belə qətnamələr 2015-ci, 2016-cı və 2017-ci illərdə Küveyt, Özbəkistan və Kotdivuarda keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasında qəbul olunub.

Xarici İşlər Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi işğal olunmuş ərazilərimizdəki maddi-mədəniyyət abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi üzrə faktaraşdırıcı missiyanın təşkil olunması məsələsini beynəlxalq səviyyədə dəfələrlə qaldırıb. Maddi-mədəniyyət abidələrinə qarşı törətdiyi vəhşiliklərə görə daşıdığı məsuliyyətini dərk edən Ermənistan hər bir vəchlə buna imkan vermir. Xarici işlər naziri Elmar Məmmədyarov bu ilin yanvar ayında UNESCO-nun baş katibi Odre Azule ilə təşkilatın mənzil-qərargahında görüşü zamanı UNESCO-nun işğal olunmuş ərazilərimizə faktaraşdırıcı missiya göndərməsi məsələsini bir daha qaldırıb.

Ermənistanın bu kimi əməlləri 1954-cü il Haaqa və ya "Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya" və həmin Konvensiyanın 1999-cu ildə qəbul edilmiş İkinci Protokolu üzrə üzərinə götürdüyü öhdəliklərinin kobud şəkildə pozulmasıdır. İkinci Protokolun 9-cu bəndi işğalçı tərəfin "işğal edilmiş ərazilərə münasibətdə" mədəni mülkiyyətin, istənilən arxeoloji qazıntı nümunəsinin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasının qadağan edilməsi və qarşısının alınması kimi öhdəliyini təsbit edir.

Silahlı münaqişələr zamanı mədəni mülkiyyət və mədəni irsə qarşı qanunazidd əməllər beynəlxalq cinayət hüququ ilə hərbi cinayət hesab olunur. Ermənistan Respublikası dövlət olaraq işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrinə qarşı törətdiyi vandalizm əməllərinə görə birbaşa beynəlxalq hüquqi məsuliyyəti daşıyır.

Xarici İşlər Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi birgə səylərlə Ermənistanın işğal olunmuş ərazilərimizdə, o cümlədən Ermənistan ərazisində Azərbaycan xalqına məxsus tarixi maddi-mədəni irsə qarşı vandalizm əməllərini beynəlxalq səviyyədə təqdim etməkdə davam edəcək.

**AZƏRTAC**

# Dövlətin tarix fəlsəfəsinin dərkində sənədlərin rolu

**Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti ili elan olunub və indi biz alimlər üçün bu uzaqgörən və dəyərli qərarın hansı səbəblərlə şərtləndirildiyini araşdırmaq əhəmiyyət kəsb edir. Bu yalnız müsəlman Şərqində ilk respublikanın yaradılması və mövcudluğu, ilk dəfə olaraq qadın və kişilərin hüquq bərabərliyinin tanınması və ya həmin hökumətdə ölkənin müxtəlif etnoslarının təmsil olunması faktlarını anlamaqla bağlı deyil, hərçənd bunlarla fəxr etmək olar və lazımdır. Fəqət həmin fərmanının qəbul edilməsi, ilk növbədə, təsdiq edir ki, bizə cəmisi 23 ay mövcud olmuş, lakin yaddaşımızda, dövlətçilik tariximizdə müstəsna iz qoymuş bu dövlətin bir fenomen kimi özünü, onun fəlsəfəsini dərk etmək lazımdır.**

Biz hansı səbəbdən Azərbaycan üçün ən yeni dövrə bir sıçrayış olan Azərbaycan Xalq Cümhuriyyətinin tariximizin yalnız bir anı olduğunu və onun mövcudluğu faktının özü ilə bağlı nələri nəzərə almalı olduğumuzu dərk etməliyik. Bundan başqa, onun liderlərinin şah əsərinin əzəməti, onların fərdi taleyi və ölkənin müqəddəratı arasındakı fərqləri də görmək gərəkdir. Bu kontekstdə onu da nəzərə almaq lazımdır ki, insanlar, adətən, siyasi liderlərin nailiyyət və uğurlarına, onların Vətənə mənəvi xidmətinə valeh olurlar. Həmin Respublikanın liderlərinin taleyi siyasət və mənəviyyat arasında, zərurət və siyasətçinin fərdi seçimi arasında kolliziyaların, toqquşmaların nümunəsidir.

Bu barədə düşüncələrə bizi akademik Ramiz Mehdiyevin "Ön söz" yazdığı "ADR-İran diplomatik munasibətləri Qafqaz Fövqaladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)" adlı sənədlər toplusu təkan verdi. Ramiz Mehdiyev öz yaradıcılığında Azərbaycanın tarix fəlsəfəsi, tariximizin ayrı-ayrı mərhələlərində dövlət və siyasət fəlsəfəsi və dövlətçiliyin müxtəlif formalarının ardıcıllığı məsələlərinə çox vaxt həsr etmiş müəlliflərdəndir. Əlbəttə, müasir suveren dövlətimizin sələfi olan Azərbaycan Respublikasının geniş, sənədli tarixi onu maraqlandırmaya bilməzdi. Bu problemlərlə o, yalnız dərin filosof kimi deyil, həm də Azərbaycan dövləti və millətinin gələcəyi barədə düşünən siyasət tarixçisi, siyasətçi və vətəndaş kimi maraqlanır. Onun bu əsərində müəyyən dərəcədə tarixçilərə də qınaq vardır, çünki indiyə qədər bu dövlətin, tariximizin bu ən maraqlı mərhələsinin sənədləri elmi dövriyyəyə cəlb edilməmişdir. Olduqca mürəkkəb bir dövr, müxtəlif dövlətlərin münasibətlərinin çarpazlaşması, onların mənafelərinin toqquşması, geosiyasi vəziyyət, Birinci Dünya Müharibəsi, inqilab və s. Bu məsələləri elmi cəhətdən araşdırmaq vacibdir, amma sənədlər ya yoxdur, ya da onlar lazımi dərəcədə tam deyil. Həm də ki, fars dilində olan sənədlər önəmlidir, lakin başqa dillərdə də olan və Rusiya, İngiltərə, Fransa, Türkiyə və digər ölkələrin arxivlərində saxlanılan sənədləri də dövriyyəyə cəlb etmək lazımdır.

Eyni zamanda, qeyd edək ki, Azərbaycan Respublikasının o dövrünün tarixinə dair nəticələr çıxarmaq üçün müxtəlif dillərdə olan sənədləri müqayisə etmək lazımdır, çünki bu, müxtəlif dövlətlər arasında Azərbaycan ilə bağlı münasibətlərin əsl səbəbini açıb göstərə və ya buna kömək edə, o illərin siyasi gerçəklikləri arxitektonikasını, İkinci Dünya Müharibəsi ərəfəsində dünya düzəninin necə yaradıldığını anlamağa imkan verə bilər. Yeri gəlmişkən, müəyyən məqamlarda onlar XX əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində təkrar olunur, bəzi cəhətlərdən isə onlar bu gün də əhəmiyyətlidir.

Akademik Ramiz Mehdiyevin həmin materialların bu cildinə yazdığı "Ön söz"ü oxuduqdan sonra aydın olur ki, vəziyyətin təhlili, dövlətlərin liderlərinin konkret fəaliyyəti və Respublika liderlərinin xatirəsinə ehtiramla yanaşmanı, bir ölkə ilə xarici siyasi münasibətləri və regionun geosiyasəti mahiyyətinin dərkini bir-birindən fərqləndirmək lazımdır (regionun taleyinin həllinə cəlb olunmuş və onu həll edən dövlətlərin münasibətlərini anlayaraq). Şübhəsiz ki, ölkənin konkret ölkə ilə, məsələn, İranla münasibətlərinə dair sənədlər lazımdır, hərçənd onlar da digər ölkələrin Azərbaycana münasibətini hansı cəhətdənsə anlamağa imkan verir. İlk növbədə, əlbəttə, yalnız dövlətlərin qarşılıqlı münasibətlərinin sintezi kimi çıxış edən ümumi vəziyyəti təhlil etməyi bacarmaq lazımdır, hərçənd bunların hər ikisi lazımdır. Fəqət sənədlərlə birlikdə təhlil, yalnız Azərbaycanın o dövr tarixinin mahiyyətini dərk etməyə deyil, həm də onun sonrakı tarixini qabaqcadan görməyə, müasir dövrümüzü də hansı cəhətdənsə anlamağa imkan verir.

Çox vaxt deyirlər ki, keçmiş müasir dövrü anlamağa kömək edir. Amma bu təmtəraqlı sözlər, keçmişi dərk etməyin nə qədər çətin olduğunu, bunun üçün hansı elmi mərkəzlərin və analitik səylərin göstərilməsinin, hansı köməkçi materialların və əlbəttə, alimlərin lazım olduğunu əks etdirmir. Burada hiss və emosiyalarla kifayətlənmək olmaz. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) xatirəsi minnətdarlıq, qürur və məhəbbətlə yad edilir. Yeri gəlmişkən, ümummilli liderimiz Heydər Əliyev bunu dəfələrlə qeyd edərək demişdir ki, AXC-yə minnətdarlıq və sevgi bəsləməyimizlə yanaşı, biz həmin dövrü, o zamanın nailiyyətləri və nöqsanlarını araşdırmalıyıq. Bu fikri VI Qlobal Bakı Forumunda Azərbaycan Prezidenti İlham Əliyev dəqiqləşdirərək qeyd edib ki, o Respublikanın faciəsi bizim üçün ibrət dərsi oldu: suverenliyi qoruyub saxlamaq onun əldə etməkdən daha çətindir. Başqa sözlə, liderlərimiz: ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev hesab edirlər ki, o dövrün mükəmməl, hərtərəfli və dərindən təhlil edilməsi Azərbaycan dövlətinin həmin faciəsinin təkrarlanmaması üçün lazımdır. Ümummilli liderimizin və Prezidentin bu sözləri bizi yalnız tarixi deyil, həm də tarixdən sonrakı tarix adlanan fenomen və hadisələri öyrənməyə, yəni onun mahiyyətini, siyasət fəlsəfəsini, baş verən prosesləri, gələcək nəsillər üçün görülən işlərin mənasını fərqləndirməyə yönəldir. Bunun üçün tədqiq edilən dövrün bütün sənəd və materiallarını elmi dövriyyəyə daxil etmək lazımdır, yalnız onların əsasında obyektiv təhlil aparmaq və deməli, nailiyyətlərdən faydalanmaq və səhvə yol verməmək mümkündür. Məhz ümummilli lider Heydər Əliyevin bu ideyaları və Prezident İlham Əliyevin fərmanı akademik Ramiz Mehdiyevi "Qafqaz Fövqəladə Komissiyası"nın materiallarının tərcüməsini təşkil etməyə şövqləndirib.

Bununla bağlı onu da qeyd etmək istərdik ki, bir çox materiallar fars dilindən ilk dəfə tərcümə olunub və onlar o dövrün sirlərinin üstünü müəyyən qədər açır. "Ön söz"ün ehtiva etdiyi Respublikanın özünə verdiyi Azərbaycan adını götürməsi, bunu liderlərin birinin necə izah etməsi, bunun üçün onların hansı çətinlikləri dəf etməli olduqları, görkəmli Azərbaycan maarifçisinin bu barədə nə yazdığı haqda məlumatlar ciddi maraq kəsb edir. Yəqin ki, biz özümüzə verdiyimiz adla fəxr etməli və onun qədrini bilməliyik. Azərbaycan adı iftixarla səslənir, həm də ona görə ki, Azərbaycan ola bilməyimiz üçün bu məqsədlə inadkarlıq göstərməli olduq. Buna da fikir vermək lazımdır ki, akademik Ramiz Mehdiyev dövriyyəyə İrana aid sənədləri daxil edir və bu, əlbəttə, tədqiqatçıların diqqətini cəlb edir. Etiraf etməliyik ki, tarixçilərimiz, həmin dövrün tarixini araşdırarkən, Türkiyə və Rusiya mənbələrinə üstünlük verirlər, lakin keçmişdə də, indi də tariximizin, geosiyasətimizin onunla bağlı olduğu ölkəni - İranı nəzərə almamaq olmaz. Onun liderlərinin əvvəllər və indi nə düşündükləri, digər qonşularımızın zəiflədiyi dövrdə hansı qərarlar qəbul etdikləri bizi maraqlandırmaya bilməz. İranla münasibətlərimiz taleyimizdə çox şeyi dəyişdirə bilərdi, bunu unutmaq lazım deyil.

Prinsipcə, akademik Ramiz Mehdiyevin yazdığı "Ön söz" belə bir fikir oyadır ki, tarix təkcə hadisələr və sənədlər deyil, həm də siyasətdə baş verənlərin ardıcıllığı, regional siyasətin dünya prosesləri ilə necə bağlı olması, liderlər üçün onların anlamağın nə dərəcədə əhəmiyyət kəsb etməsi deməkdir. Onlara zamanın ruhunu dərk etmək, bu və ya digər geosiyasi şəraitdəki fərqləri müqayisə etmək və anlamaq, dünya tarixində ümumi və xüsusini (təkcəni) başa düşmək vacibdir. Hətta ən yaxşı və əxlaqlı siyasətçilərin səy və motivləri nəticə verməyə də bilər, çünki bir çox şey dövrün şəraitindən, gerçəkliklərindən, hadisələrin gedişindən və s. asılıdır. Bundan başqa, zamanın ruhunu anlamaq üçün bəzi nəzəriyyələri də, məsələn, müxtəlif dövrlərin imperiyaları haqda, A. Toynbinin çağırışlar haqda nəzəriyyəsi tipli, nasiogenez ideyaları barədə və s., bilmək lazımdır.

Bununla bağlı olaraq, akademik Ramiz Mehdiyevin iki tezisinə - maarifçilik, Azərbaycan maarifçiliyi və Azərbaycan Xalq Cümhuriyyəti (AXC) arasında əlaqə haqqında və AXC-nin ölkə və dövlətçiliyin sovet dövründə qorunub saxlanmasına imkan yaratdığı barədə - xüsusi diqqət yetirmək istərdik. Qeyd edək ki, müəllif 1919-cu ilin yazına Azərbaycan hökumətinin, Xarici İşlər Nazirliyinin fəaliyyətinin İranla münasibətlərdə müsbət nəticələr verdiyini vurğulayır. O, həmçinin qeyd edir ki, Azərbaycanın keyfiyyətli surətdə idarə olunduğuna xarici ölkələr də fikir vermişdi.

Təbii ki, belə bir sual yaranır: necə oldu ki, bu yeni hökumət xarici siyasət problemlərini həll etməyə qadir oldu, hərçənd biz bilirik ki, digər sahələrdə də nailiyyətlər var idi. Bir tərəfdən, etiraf etmək lazımdır ki, hökumət, əsasən, məşhur təhsil ocaqlarının məzunlarından ibarət idi. Onlar kamil hüquqşünas, tarixçi, hərbçi, müəllim və s. idilər. Onlar ziyalı idilər və burada biz Azərbaycan maarifçiliyinin bizə nə verdiyinin dərkinə yaxınlaşırıq. Azərbaycan Respublikasının liderləri maarifçilik ideyaları əsasında inkişaf edib yetişmişdilər, onların, ən azı, bəziləinin, idealı maarifçilərimizin ideyaları idi. İlk baxışdan belə nəticəyə gəlmək olardı: faciə ondan ibarət idi ki, ziyalılar, humanistlər ən çətin bir dövrdə hökumətə başçılıq edirdilər və buna görə, yəqin ki, həmin Azərbaycan, nailiyyətlərinə baxmayaraq, cəmi 23 ay mövcud oldu. Amma yalnız dardüşüncəli insan bu cür düşünə bilər. Fəqət o Cümhuriyyət olmasa idi, Azərbaycan Sovet Respublikası da olmazdı, XX əsrdə bizim dövlətçiliyimizdə varislik olmazdı.

Və nəhayət, ayrıca olaraq, akademik Ramiz Mehdiyevin Azərbaycanın tarix fəlsəfəsi haqqında nəzəriyyəsi üzərində düşünərkən, gəldiyimiz və tezislər şəklində ifadə etdiyimiz, qismən sənədlər cildinin "Ön söz"ündə də şərh olunmuş bəzi nəticələr barədə.

*Birincisi,* tarixi sənədlər dövlətin tarix metafizikasına (fəlsəfəsinə) doğru, onun suverenliyi və inkişafının nəyə əsaslandığının dərkinə yalnız yol açır.

*İkincisi,* dövlətin tarixi və siyasətində çox şey liderdən, onun biliklərindən, istedadından asılıdır. Onun keyfiyyətləri zamanın ruhu və şəraitinə üstün gələ bilər. Əsl lider hətta müstəqilliyin itirilməsi şəraitində xalqın rifahı naminə fəaliyyət göstərir. Burada Heydər Əliyevin tariximizin sovet dövründə Azərbaycanın inkişafına, maarifçilik ruhunun, ziyalıların xalq üçün əhəmiyyətinin qorunub saxlanmasına verdiyi töhfələr yada düşür.

*Üçüncüsü,* yalnız tarix fəlsəfəsi və siyasət fəlsəfəsi konkret tarixi hadisələri, onların dünya ilə, tarixin hərəkətverici qüvvələri ilə qarşılıqlı əlaqələrini başa düşməyə imkan verir. Zaman və məkanın, mədəniyyətin, ölkənin əhatəsinin və xalqın necə yaşadığının tarixini anlamadan ölkənin tarixini başa düşmək mümkün deyil. Akademik Ramiz Mehdiyevüçün keçmişdə baş verən, məhz buna görə də çoxqat görmə optikasına malik bu və ya digər siyasi hadisələrin mahiyyətini görmək, aşkar və təsvir etmək vacibdir. Yalnız öz mənafeyini, öz ideyalarını deyil, bir çox ideyaları, bir çox cəhətləri görmək lazımdır və bu, sənin gücünü, qabiliyyətini, məharətini, sənin dövlətinin qüdrətini artırar.

*Dördüncüsü,* tarix və siyasətin mahiyyəti bilavasitə insanların həyatına, onların həyatının, azadlığının, dəyərlərinin mənasına, mahiyyətinə nüfuz edib. Onlar siyasi fəaliyyətə




əhəmiyyət qazandırır. Buna görə də siyasət mənəvi və ya əxlaqi məna kəsb edir, hərçənd siyasət və tarix əxlaq, əxlaq və mənəviyyat isə siyasət olmasa da, onlar bir-biri ilə ayrılmaz surətdə bağlıdır, onları şərti olaraq, onların dərin əlaqəsini anlamaq üçün bir-birindən ayırırlar. Bu əlaqəni ya dərin fəlsəfi zəka, ya da siyasi fəhm yiyəsi dərk edə bilər.

*Beşincisi,* Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənərkən, Azərbaycan liderlərinin Azərbaycan dövlətinin, xalqının gələcəyini necə təsəvvür etdiklərini, onların Rusiya imperiyasının süqutu və inqilab barəsində, İranla, "İran" Azərbaycanı ilə münasibətlər haqqında nə düşündüklərini, ilk Respublikamızın süqutundan sonra onların bu məsələlərin bütün spektri üzrə baxışlarının necə dəyişdiyini, nəhayət, onların ölkənin iqtisadiyyatı, kapitalizm və bazar iqtisadiyyatı cəmiyyəti barədə nə fikirləşdiklərini obyektiv olaraq başa düşmək lazımdır. Bunun üçün onların ideyaları və Azərbaycan maarifçilərinin ideyaları arasında əlaqələri araşdırmaq gərəkdir.

*Altıncısı,* tarix çoxcəhətli anlayışdır, onun bir çox elmlərin obyekti olduğunu, onun böyüməkdə olan nəsillərin tərbiyəsində istifadə edilməli və edilə bilən olduğunu nəzərə almamaq olmaz. Lakin bunun üçün o, fəlsəfə, məntiq, əxlaq və estetikanı özünə hopdurmuş olmalıdır. O, nəinki nailiyyətlərdən, hətta itkilərdən əldə edilmiş təcrübədən, yalnız onlardan yox, həm də sadə insanların bilik və yaşantılarından ibarət olmalıdır.

**İlham MƏMMƏDZADƏ,**
**AMEA-nın Fəlsəfə İnstitutunun direktoru.**

# Müstəqil Azərbaycan regionun lider dövlətidir

## *İstər regional, istərsə də daha böyük istiqamətlərdə görülən işlər, reallaşdırılan layihələr bu liderliyin məntiqi nəticəsidir*

**Aprel ayının 11-də Prezident seçkisində xalq səsverməyə gedərək özünə yeni lideri müəyyən edəcək və qalib növbəti yeddi il müddətində dövlətə, xalqa ləyaqətli xidmət missiyasını yerinə yetirəcək. Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki mühitini ölkənin son illər ərzindəki inkişafı və bu yüksəlişin formalaşdırdığı ab-hava təyin edir.**

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən ölkə rəhbəri siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, titanik işgüzar keyfiyyətləri, ən əsası isə xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir. Onun rəhbərliyi altında Azərbaycan dövləti bundan sonra da böyük tərəqqi yolu keçəcək və inkişaf etmiş dövlətlərin cərgəsində inamla addımlayacaqdır. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə haqqı, ədaləti dəstəyini nümayiş etdirib. Çünki bu seçim Heydər Əliyev yolunun davamı, inkişaf və güclü dövlətçilik deməkdir və Azərbaycan xalqı buna alternativ görmür.

Yarandığı gündən YAP-ın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 26 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib. Beləliklə, Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. YAP ulu öndər Heydər Əliyevin ideyaları əsasında irəliləyərək böyük və şərəfli yol keçib. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. YAP öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlərin ciddi tarixi və siyasi əsasları mövcuddur. YAP ötən müddət ərzində milli tərəqqiyə xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verib, ölkəmizin qarşısında yeni inkişaf üfüqlərinin açılmasında müstəsna rol oynayıb. Bütün bunlar müasir və qüdrətli Azərbaycanın gələcəyə əmin addımlarla irəliləməsini təmin edib.

Partiya yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olub. Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib. Partiyanın yarandığı vaxtdan etibarən Azərbaycanda keçirilən bütün ümummilli seçkilərdə parlaq qələbələr qazanması hər kəsə bəllidir. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, hər seçkidən-seçkiyə partiyamızın uğurlarının miqyası genişlənir və bu, seçkilərin nəticələrində də özünü aydın şəkildə ifadə edir. 2003, 2008 və 2013-cü illərdəki Prezident seçkiləri buna sübutdur.

Müstəqil Azərbaycanın son illərdə ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada lider mövqelərə yüksəlməsi də dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Ümummilli liderin ciddi elmi təmələrə söykənən inkişaf strategiyasını inamla davam etdirən dövlət başçısı qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən qüdrətli dövlətinə çevirmişdir.

Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır. Ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı təmin edilmişdir. 2016-cı ildə keçirilən Konstitusiya islahatları, Vitse-prezident institutunun yaradılması həyata keçirilən islahatların dərinləşməsi, dövlət idarəçiliyinin təkmilləşməsi, insan hüquq və azadlıqlarının qorunması üçün daha geniş bazanın yaradılması və səmərəliliyin təmin olunması istiqamətində ən uğurlu addımlardan sayılmalıdır.

Ölkəmizdə uzun illərdir ki, ictimai-siyasi sabitlik mövcuddur, iqtisadi qüdrətimiz dünyanın ən aparıcı dövlətləri ilə eyni sırada dayanır, Azərbaycan bir sıra nüfuzlu beynəlxalq mərkəzlərin keçirdiyi sorğulara görə ön pillələrdə yer alır və bu kimi uğurlarımız minlərlədir. Əbəs deyil ki, Azərbaycan istər Cənubi Qafqaz regionunda, istərsə də dünyada lider ölkəyə və söz sahibinə çevrilib. İstər regional, istərsə də daha böyük istiqamətlərdə görülən işlər, reallaşdırılan layihələr bu liderliyin məntiqi nəticəsidir. Əlbəttə ki, eyni zamanda bütün bunların əsası müdrik, qətiyyətli və uzaqgörən siyasətə söykənir. 2003-cü ildə xalqımız bununla ulu öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsinin davamına, təhlükəsizliyə, inkişafa səs verdi. Aradan ötən 14 ildən artıq bir dövr xalqımızın bu seçiminin nə qədər doğru, düzgün və müdrik olduğunu təsdiqləyir. Bəli, Azərbaycan bu illərdə yüksəliş dövrünü yaşayıb, qüdrətlənib, nüfuzunu artırıb. Heydər Əliyev siyasətini uğurla davam etdirən ölkə rəhbəri Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirib, milli mənafelərimizi cəsarətlə və uğurla təmin edib. Aparılan uğurlu siyasət nəticəsində xalq-iqtidar birliyi daha da dərinləşib. Adətən böhran zamanı digər ölkələrdə ictimai-siyasi kataklizmlər olduğu halda, Azərbaycanda sabitlik nəinki qorunub, həm də möhkəmlənib. Məhz bu sabitliyin nəticəsidir ki, nəinki Azərbaycan xalqı, həm də xarici investorlar iqtidarın siyasətinə etimad göstərirlər. Elə bunun nəticəsidir ki, son 14 ildə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə yatırılıb. Bu sərmayənin 93 faizi məhz son 14 ildə qoyulub və proses bu gün də davam edir. Ölkəmizin valyuta ehtiyatları 23 dəfə artaraq 42 milyard dollara yüksəlib. Son 14 ildə ölkədə 443 körpü tikilib, 3100-dən çox məktəb inşa edilib, 642 tibb müəssisəsi, 43 olimpiya idman kompleksi tikilib, 265 min məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib, 30 elektrik stansiyası tikilib, qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlər qazla 100 faiz təmin edilib, maaşlar 5, pensiyalar 8 dəfədən çox artıb. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilib. 7 beynəlxalq aeroport yenidən qurulub və 1,9 milyon iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir.

Bütün bunlar dövlətin siyasətinə ictimai etimadın və xalqın inamının təzahürüdür. Ölkə rəhbərinin daim xalqla bir yerdə olması, xalqın maraqlarını ifadə etməsi, verilən tapşırıqların icrası ilə yerində maraqlanması, dövlət xidmətlərinin keyfiyyətinin və əlçatarlılığının daim artırılması, Prezidentin tapşırığı ilə mərkəzi hakimiyyət qurumlarının rəhbərlərinin regionlarda sakinlərlə mütəmadi keçirdikləri görüşlər, biznesə yaradılan münbit şərait, xarici siyasətdə uğurlar, ordu quruculuğu və müasir kommunikasiya siyasəti xalqın dövlət institutlarına etimadını yüksəldir. Əldə olunmuş bu nailiyyətlər bir daha təsdiq edir ki, Azərbaycan yeni çağırışları qarşılamağa hazırdır və bunun üçün adekvat inkişaf strategiyasına malikdir.

Bu gün Azərbaycanda azad, ədalətli, demokratik və şəffaf seçkilər keçirilməsi üçün əlverişli mühit var. İndiyədək ölkəmizdə bütün seçkilər Konstitusiya normalarına, Seçki Məcəlləsinə və digər aidiyyəti qanunvericilik aktlarına uyğun olaraq demokratik, şəffaf və ədalətli şəkildə baş tutub. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri xalqın iradəsini əks etdirib. Seçki prosesi və onun nəticəsi yerli, beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Son 14 ildə həyata keçirilən yeni inkişaf konsepsiyası ölkədə köklü yeniliklərə, müasir inkişaf tendensiyalarına təkan oldu, dövlətin mövcudluq və müstəqilliyin davamlılıq şərtlərini təmin edən amilləri gücləndirdi. Ölkədə başlanan yeni inkişaf dövrü, dərin və sürətli islahatlar mərhələsi mühüm uğurları şərtləndirdi.

O xalq, o cəmiyyət xoşbəxtdir ki, onun idarəçiliyi dincliyə, əmin-amanlığa söykənir. Bununla yanaşı, bu sabitlik, bir sözlə, bütün ölkənin taleyi onu idarə edən müdriklərin çiynindədir. Təcrübə göstərir ki, xalq hər zaman bu ağır yükü daşımağa qadir olan belə yüksək ləyaqətli tarixi şəxsiyyətlərini, liderlərini dəstəkləyir, onların ardınca gedir, onlara inanır və arxalanır. Əminliklə söyləyə bilərik ki, Azərbaycan xalqı aprelin 11-də seçkilərə gedib səs verməklə növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, sabitliyinə, əmin-amanlığına təminat verəcədir.

Ümummilli lider Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün daha da inkişaf edir və qüdrətlənir. Həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub.

Bu gün ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyinin əbədiliyinin yolu məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir.

**Azərbaycan ictimaiyyəti qarşıdan gələn növbədənkənar Prezident seçkisində davamlı inkişafa, sabitliyə və güclü Azərbaycan dövlətçiliyinə səs verəcəkdir.**

**Etibar ƏLİYEV,**
**İqtisad elmləri üzrə fəlsəfə doktoru.**

# İsveçrənin Bazel şəhərində Azərbaycan filmi nümayiş olunub

**İsveçrənin Bazel şəhərində təşkil olunmuş 13-cü Querfeld Mədəniyyətlərarası Film Festivalında Azərbaycanın İsveçrədəki səfirliyinin dəstəyi və "Azərbaycanın dostları" diaspor təşkilatının təşkilatçılığı ilə "Axınla aşağı" filminin nümayişi keçirilib.**



Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, film festivalın ilk günü, açılışdan sonra göstərilib və tamaşaçıların böyük marağına səbəb olub.

Filmin nümayişindən əvvəl "Azərbaycanın dostları" diaspor təşkilatının rəhbəri Arzu Əliyeva tamaşaçıları salamlayıb və onlara "Axınla aşağı" filmi ilə yanaşı, ölkəmizin mədəniyyəti, musiqisi, kinematoqrafiyası haqqında ətraflı məlumat verib. O, son illərdə Azərbaycanda kinematoqrafiyanın inkişafına xüsusi diqqət göstərildiyini bildirib.

Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə çəkilən psixoloji ailə dramını canlandıran ekran əsəri 2014-cü ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında lentə alınıb. Filmin quruluşçu rejissoru Asif Rüstəmovdur.

Festival çərçivəsində, həmçinin təşkilatçılar tərəfindən Azərbaycanın mədəniyyətini və mətbəxini tərənnüm edən guşə də yaradılıb. Tədbirin təşkil olunduğu zalda ölkəmizin milli təamları və müxtəlif növ şirniyyatları qonaqlara təqdim edilib.

Qeyd edək ki, 2006-cı ildən keçirilən festival İsveçrədə yaşayan müxtəlif xalqların nümayəndələri tərəfindən təşkil olunur və mədəniyyətlərarası əlaqələrin gücləndirilməsi, eləcə də ölkədə tolerantlığın təşviqinə xidmət edir.

**AZƏRTAC**

# Azərbaycan dinamik inkişaf yolundadır



Bu gün Azərbaycan böyük inkişaf yolunda sürətlə addımlayır. Ölkəmizin son illər əldə etdiyi böyük uğurlarının təməlində və müstəqil dövlət kimi dünyada yüksək nüfuz və hörmət qazanmasında ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyası dayanır. Ulu öndərin 1993-cü ildə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtması ilə ölkədə o dövrlər tüğyan edən özbaşınalığın, anarxiyanın qarşısı alındı, müstəqil dövlət quruculuğuna start verildi, bütün sahələrin sürətli inkişafını təmin edəcək məqsədyönlü islahatlar aparıldı. Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biri onun təməlini qoyduğu iqtisadi inkişaf kursunu uğurla davam etdirəcək siyasi varis yetişdirməsidir. 2003-cü ildən ötən 14 il ərzində Heydər Əliyev siyasəti yaşayır, yeni formalarla zənginləşir, müstəqil ölkəmiz sürətlə inkişaf edir. Bu gün Azərbaycan təsadüfi deyil ki, dünya miqyasında ən sabit ölkələrdən biridir və bunun təməlində xalq-iqtidar birliyi dayanır. Möhkəm təmələ əsaslanaraq uğurla həyata keçirilən genişmiqyaslı islahatlar ölkəmizin bugünkü yüksək inkişafını təmin etmiş, böyük islahatlar ili kimi tariximizə düşüb. İldən-ilə Azərbaycan daha da inkişaf edir, müasirləşir. Modernləşmə, yeniləşmə dövlət siyasətinin ana xəttini təşkil edir.

Ölkə iqtisadiyyatının, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb etmişdir. Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətin davamı olaraq 2009-2013, 2014-2018-ci illər üçün regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları hazırlanmışdır və uğurla icra olunmaqdadır. On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani olaraq göstərir. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Qeyri-neft sektoru 2,8, sənayemiz 2,6, kənd təsərrüfatı 1,7, qeyri-neft ixracımız 4,1 dəfə artmışdır. On dörd il ərzində valyuta ehtiyatlarımız 23 dəfə artaraq 42 milyard dollara çatmışdır. Ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bu illər ərzində ölkəmizdə 1,9 milyon yeni iş yeri yaradılıb ki, bunların 1,4 milyonu daimi iş yeridir. Sosial infrastruktura bağlı böyük işlər görülüb. Belə ki, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi, 43 Olimpiya İdman Kompleksi inşa edilmişdir. Bu işlər 2018-ci ildə də uğurla davam etdiriləcəkdir.

Azərbaycanda iqtisadi və siyasi islahatların uğurla aparılması onun beynəlxalq aləmdə nüfuzunu artırıb. Ölkəmiz demokratik ölkə kimi tanınıb. İnsan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, demokratik seçkilərin keçirilməsi təmin olunub. Bütün aparılan hüquqi-demokratik islahatların nəticəsidir ki, 2011-ci ildə Azərbaycan 156 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

Son illər insanların sosial həyat səviyyəsinin yüksəldilməsi istiqamətində də böyük işlər görülmüş, infrastruktur layihələri icra edilmişdir. Əhalinin elektrik enerjisi, qaz, su ilə təminatı istiqamətində tədbirlər uğurla həyata keçirilmişdir. Son 14 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir ki, bunların gücü 2500 meqavata bərabərdir. Bu gün Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevrilib. Bunun üçün Rusiya, Gürcüstan, İran İslam Respublikası ölkələri ilə elektrik xətlərimiz birləşdirilmişdir. Qazlaşdırılma sahəsində də görülən işlərin miqyası olduqca böyükdür. 2004-cü ildə ölkəmizdə qazlaşdırmanın səviyyəsi 51 faiz olduğu halda, hazırda respublika üzrə bu göstərici 93 faizə çatıb. Ölkə əhalisinin fasiləsiz olaraq içməli su ilə təminatı da ötən bu dövrlər ərzində 26 faizdən 67 faizə çatdırılıb. Bir çox şəhərlərimizdə içməli su və kanalizasiya layihələri uğurla yekunlaşıb. Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri inşa edilib. Ceyranbatanda isə dünyanın ən böyük sutəmizləyici qurğusu tikilmişdir ki, bu qurğudan çıxan su öz keyfiyyətinə görə dünya standartlarına tam cavab verir. Ölkəmizdə kənd təsərrüfatının inkişafını təmin etmək məqsədilə meliorativ tədbirlər görülmüşdür. Dörd su anbarı tikilmişdir: Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay. Bunlar da kənd təsərrüfatının inkişafına böyük təkan verən infrastruktur layihələridir.

Hər bir dövlətin iqtisadi inkişafını şərtləndirən əsas amillərdən biri də yol infrastrukturunun müasir tələblərə cavab verməsidir. Müasir yol olmadan heç bir sahədə uğur əldə etmək mümkün deyil. Yol-nəqliyyat kompleksinin inkişafı, müasir infrastrukturun yaradılmasını təmin etmək üçün 2009-2013-cü illər Dövlət Proqramı qəbul olunub. Nəqliyyat sektorunun davamlı inkişafı ölkə başçısı tərəfindən prioritet elan edilmişdir. Karbohidrogen ehtiyatlarının xarici bazarlara daha təhlükəsiz, az məsrəflə və ən qısa müddətdə çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz ixrac nəql kəmərləri istifadəyə verildi. Artıq on ildən çoxdur ki, Bakı-Tbilisi-Ceyhan fəaliyyət göstərir. Bu layihələrin reallaşması uzunmüddətli inkişafımıza zəmin və şərait yaratmışdır.

Son illər bütün sahələrdə olduğu kimi, ölkənin polad magistralında da yeniləşmə, müasirləşmə işləri də uğurla həyata keçirilib, ölkənin dəmir yolu cənab Prezidentin diqqət və qayğısı sayəsində ən yüksək inkişaf mərhələsinə qədəm qoyub. Ölkə başçısının təşəbbüskarı olduğu Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın tarixində ən önəmli hadisələrdəndir. Dövrümüzün ən iri və beynəlxalq əhəmiyyət daşıyan layihələrindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ölkə iqtisadiyyatının inkişafına, bölgə və dünya dövlətləri ilə əlaqələrin genişlənməsinə imkan verəcəkdir. Bu gün ölkəmiz həm regionda, həm də dünyada nəqliyyat sahəsində loqistik mərkəzə çevrilib. Bu gün "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin yaradılması işləri sürətlə aparılır və bu məqsədlə Prezident xüsusi sərəncam imzalamışdır.

Bir sözlə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən 14 ildə gördüyü işlərin, həyata keçirdiyi tədbirlərin miqyası o qədər böyükdür ki, onu bir yazıda əhatə etmək mümkünsüzdür. Görülən işlər, aparılan siyasət xalqımız tərəfindən bəyənilir və dəstəklənir. Çünki bu siyasi-iqtisadi inkişaf kursu xalqımızın xoşbəxt gələcəyinin qarantı və təminatçısıdır. Bu gün Azərbaycan regionun və dünyanın inkişaf etmiş ölkələri sırasındadır və yeni-yeni hədəflərə doğru inamla addımlayır. Görülən işlər və əldə olunmuş nəticələr deməyə əsas verir ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, müasirləşəcəkdir.

**Bəşir ƏSƏDOV,**
**Azərbaycan Dəmir Yolları QSC-nin Vaqon xidmətinin rəisi.**

# Heydər Əliyev Beynəlxalq Aeroportu növbəti dəfə postsovet məkanının ən yaxşı aeroportu seçilmişdir

**Heydər Əliyev Beynəlxalq Aeroportu ardıcıl olaraq ikinci dəfə hava limanı sənayesi üçün ən nüfuzlu qiymətləndirmə olan "Skytrax World Airport Awards" mükafatına layiq görülmüşdür. "Skytrax" mükafatının təntənəli təqdimat mərasimi Stokholmda (İsveç) keçirilmişdir.**



Azərbaycanın əsas hava limanı Rusiya və MDB ölkələrinin bütün aeroportları arasında göstərilən xidmət səviyyəsinə görə ən yaxşılar siyahısına yenidən başçılıq etmişdir. Bakının hava limanı artıq ikinci ildir ki, bu nominasiyada liderliyini qoruyur.

Bundan başqa, Heydər Əliyev Beynəlxalq Aeroportu hər il beş milyona yaxın sərnişinə xidmət göstərən dünya aeroportları siyahısında üçüncü yerdə qərarlaşıb. Siyahıya London-Siti aeroportu başçılıq edir.

Daha bir nüfuzlu nominasiyanı Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) almışdır. Belə ki, o, dünyanın ən yaxşı terminallarının onluğuna daxil olmuşdur. Bu reytinqin lideri Londonun Hitrou hava limanıdır (Terminal 2) .

"Skytrax" tərəfindən keçirilən və 550 hava limanı arasında sərnişinlərə xidmət və şəraiti qiymətləndirən hava limanlarının qlobal inspeksiyası dünya hava limanı sənayesi üçün keyfiyyət etalonu sayılır. İnspeksiya və mükafat hava limanının nəzarəti və müdaxiləsindən asılı olmadığı üçün hava limanının mükəmməllik və keyfiyyəti üzrə obyektiv göstəricidir. İnspeksiya dövründə "Skytrax" həmçinin 100 ölkədən 13,73 milyon sərnişin arasında sorğu keçirmişdir.

**Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidməti.**

# "Ölkəmizi tanıyaq" tur-aksiyası

## Qazax

Respublikamızda "Ölkəmizi tanıyaq" devizi altında maarifləndirici tur-aksiyaların keçirilməsi artıq ənənə şəklini alıb. Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşdırılan bu tur-aksiyalarda IX-XI sinif şagirdləri iştirak edir. Bu gəzintilər ölkəmizin tarixini dərindən öyrənməklə yanaşı, gənclərimizə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli dövlət quruculuğu sahəsində görülmüş işlərlə, Prezident İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişafla hər bir şəhər və rayonun nümunəsində tanış olmaq imkanı yaradır.

"Ölkəmizi tanıyaq" tur-aksiyasında iştirak edən qazaxlı məktəblilər Heydər Əliyev adına parka toplaşıblar. Əllərində üçrəngli Azərbaycan bayraqları tutmuş şagirdlərin üzlərində sevinc, təbəssüm var idi. Üzərinə "Qazax" sözləri yazılmış gödəkcələr geyinmiş şagirdlər deyib-gülür, tur-aksiya barədə danışırdılar.

Tur-aksiyada iştirak edən məktəblilər və müəllimlər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq ümummilli liderin əziz xatirəsini yad ediblər.

Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova, rayon təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı yolasalma mərasimində məktəblilərə xoş istirahət və rayonumuza qələbə ilə qayıtmağı arzulayıblar.

Rayonun müxtəlif məktəblərindən olan 40 nəfər şagird martın 26-dan 29-na kimi Qəbələ-Şəki-Zaqatala rayonlarının gəzməli, görməli, tarixi yerlərinə səfər edəcək, bölgə ilə əyani tanış olacaq, rayonların sosial, iqtisadi və mədəni həyatı barədə məlumat alacaqlar. Tur-aksiya çərçivəsində şagirdlər intellektual oyunlarda da iştirak edəcəklər.

## Ağstafa

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırığına əsasən müxtəlif şəhər və rayonlarda yaşayan məktəbli gənclərin respublikamızın digər bölgələrinə səyahətinin təşkili davam etdirilir. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində ağstafalı məktəblilər növbəti mərhələyə qatılıblar. Belə ki, rayonun 40 nəfər IX-XI sinif şagirdi 5 bələdçi-müəllimin müşayiəti ilə Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə yola düşüblər. Səyahətdən öncə iştirakçılar Ağstafa Rayon Heydər Əliyev Mərkəzinin önündə ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Yolasalma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin məsul işçiləri, valideynlər, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Ramiz Tatarov, rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli və başqaları çıxış edərək aksiyaçılara uğurlar arzu edib, tur-aksiyanın əhəmiyyətindən bəhs ediblər.

Dörd günlük səfər çərçivəsində məktəblilər Qəbələ, Şəki və Zaqatala istiqaməti üzrə səfər edəcəklər. Tur-aksiya iştirakçıları müasir turizm infrastrukturuna malik Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcəklər. Məktəblilər "Şəki-İpək" kombinatında, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki xanlarının sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi ilə də tanış olacaqlar. Zaqatalada şagirdlər müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Ağdam

Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adı ilə keçirilən maarifləndirici tur-aksiyaya Ağdam məktəbliləri də qoşulublar. Martın 26-29-da "Ölkəmizi tanıyaq" devizi altında keçiriləcək maarifləndirici tur-aksiya çərçivəsində Qəbələ, Şəki və Zaqatala rayonlarını daha yaxından tanıyacaqlar.

Rayonun məktəbliləri "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur-aksiyasına Quzanlı qəsəbəsindən yola düşüblər. Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən yolasalma mərasimində rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər və valideynlər iştirak ediblər.

Rayon icra hakimiyyəti başçısının müavini Ağa Zeynalov və təhsil şöbəsinin müdiri Mətanət Misirxanova çıxış edərək aksiyanın əhəmiyyətindən danışıb, şagirdlərə səfərlərinin olduqca maraqlı olacağını, tur-aksiyadan çox şey öyrənəcəklərini bildiriblər.

Övladını yola salmağa gələn valideyn Yusif Məhərrəmov tur-aksiyadan məmnunluğunu belə ifadə edib: "Hər bir valideyn kimi mənim də istəyim övladımın bilikli, dünya görüşlü olmasıdır. "Ölkəmizi tanıyaq" tur-aksiyası məktəblilərə Vətənimizi daha yaxşı tanımaq, biliklərini artırmaq imkanı verir. Tur-aksiyanın təşkilatçılarına minnətdaram".

Tur-aksiyada iştirak edən şagird və müşayiətçilər Heydər Əliyev Mərkəzində eksponatlarla tanış olub, ümummilli liderin abidəsi önünə gül dəstələri qoyub, sonra onlar üçün ayrılmış avtobusla Qəbələ-Şəki-Zaqatala istiqamətində yola düşüblər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Niderlandda 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı yürüş təşkil edilib

**Niderland Krallığının Rotterdam şəhərində Avropa Azərbaycanlıları Konqresinin (AAK) və Benilüks Azərbaycanlıları Konqresinin (BAK) təşkilatçılığı ilə 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş "Səssiz yürüş" aksiyası keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, aksiya iştirakçıları təkcə erməni terrorçularına




yox, eyni zamanda, onlara dəstək verən bəzi Avropa dövlətlərinə də etirazlarını bildiriblər. Onlar, həmçinin Niderland parlamentinin alt palatasında qondarma "erməni soyqırımı" ilə bağlı sənədin qəbul edilməsinə qəti etirazlarını bildirərək bundan sonra da hər zaman Türkiyənin yanında olacaqlarını deyiblər.

Aksiyaya Niderland Krallığında fəaliyyət göstərən türk, Latviya, Litva, Estoniya, İraq türkmənlərinin diaspor təşkilatları da yaxından dəstək verib. BAK-ın birinci vitse-prezidenti, Azərbaycan-Hollandiya Həmrəylik Cəmiyyətinin sədri Elsevər Məmmədov bildirib ki, erməni terrorçularının azərbaycanlılara qarşı törətdiyi soyqırımının 100 illiyi ilə əlaqədar Benilüks ölkələrində də silsilə tədbirlər təşkil olunacaq. Bu istiqamətdə AAK və BAK Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycanın Niderlandda və Belçikada fəaliyyət göstərən diplomatik korpusları ilə birgə fəaliyyət göstərir.

**AZƏRTAC**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ❑ QƏRB ÖLKƏLƏRİ RUSİYAYA QARŞI BİRLƏŞDİ



ABŞ, Kanada, Ukrayna və Avropa Birliyinə üzv 15 ölkə rusiyalı diplomatları ölkədən çıxarmaq qərarına gəlib. "APA"nın "Euronews" telekanalına istinadən verdiyi xəbərə görə, buna səbəb Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki, vaxtilə Rusiyada Britaniyaya casusluq üstündə məhkum olunmuş, daha sonra ABŞ və Rusiya arasındakı casus mübadiləsi çərçivəsində Britaniyaya göndərilmiş 66 yaşlı Sergey Skripal və onun 33 yaşlı qızı Yuliyanın zəhərlənməsi faktıdır.

Verilən xəbərə görə, təkcə ABŞ-ı 60 rusiyalı diplomat tərk etməli olacaq. ABŞ Dövlət Departamentindən bildiriblər ki, BMT-də təmsil olunan diplomatlar vəzifələrindən sui-istifadə edən Rusiya kəşfiyyatının əməkdaşlarıdır. Bundan başqa, rəsmi Vaşinqton Sietl şəhərindəki Rusiyanın baş konsulluğunu da bağlayacaq.

Eyni zamanda, Avropa Birliyi Şurasının prezidenti Donald Tusk qeyd edib ki, Almaniya, Fransa və Polşa 4, Çexiya 3, Hollandiya 2, Ukrayna isə 13 rus diplomatını "arzuolunmaz şəxslər"in siyahısına daxil edib.

Bununla yanaşı, bildirilir ki, Kanada, Albaniya və İspaniya da rus diplomatlarının ölkədən xaric edilməsini nəzərdən keçirir. Türkiyə, Avstriya, Slovakiya və Yeni Zelandiya isə rus diplomatlarını qovmaqdan imtina ediblər. Bu, "soyuq müharibə" dövründən sonra Qərb dövlətlərinin Rusiyaya qarşı tətbiq etdikləri ən sərt diplomatik sanksiyasıdır.

Rusiya xarici işlər nazirinin müavini Vasili Nebenzya bəyan edib ki, rəsmi Moskva birmənalı olaraq atılan addımların hüquqi əsasının olmadığı qənaətindədir. "Böyük Britaniya və müttəfiqlərinə ən qısa zamanda cavab veriləcək. Lakin biz istənilən halda danışıqlara hazırıq" - deyə diplomat qeyd edib.

## ❑ KİM ÇEN IN İLK DƏFƏ ÇİNƏ RƏSMİ SƏFƏR EDİB



Şimali Koreya lideri Kim Çen Inın Çinə ilk rəsmi səfəri başa çatıb. "APA"nın məlumatına görə, bu barədə "Assoşieyted Press" agentliyi xəbər yayıb. Məlumatana əsasən, Çinə tam məxfi şəkildə səfər edən Şimali Koreya lideri Pekinin mərkəzi vağzalından yola düşən zaman görüntülənib.

Eyni zamanda, bildirilir ki, Kim Çen Inın avtomobil karvanı yola düşərkən vağzal sərnişinlər və işçilər üçün bağlı elan edilib və bütün heyət ərazidən uzaqlaşdırılıb.

Qeyd edək ki, yerli mətbuat martın 26-da Pekinə Şimali Koreyadan ilk dəfə olaraq xüsusi hazırlanmış qatarın gəlişi barədə məlumat yaymış və həmin qatarda Kim Çen Inın olduğunu qeyd etmişdi. Bu, Kim Çen Inın Şimali Koreya xaricinə ilk səfəridir.

Verilən xəbərə görə, rəsmi Pekin müəyyən olunmuş vaxtda səfərin təfərrüatları barədə informasiya yayacağını bəyan edib. Şimali Koreya Mərkəzi Kommunist Partiyasının rəsmi qəzeti "Nodon Simun" isə hələ ki, səfər barədə heç bir məlumat verməyib.

Bundan öncə Kim Çen Inın atası Kim Çen İr və babası Kim İr Sen də xarici səfərlərə məhz dəmiryolu vasitəsilə gediblər. Sonuncu dəfə 2011-ci ildə Kim Çen İr Ulan-Udeyə səfər etmiş və orada Rusiya prezidenti Dmitri Medvedevlə görüşmüşdü.

## ❑ KEMEROVODA YANĞININ QƏSDƏN TÖRƏDİLDİYİ İDDİA EDİLİR



Rusiyanın Kemerovo şəhərində yerləşən və martın 25-də dəhşətli yanğının baş verdiyi "Zimnyaya vişnya" ticarət-əyləncə mərkəzinin baş direktoru Nadejda Suddenok istintaqa ifadə verib. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, N.Suddenok yanğının qəsdən törədildiyini iddia edib.

Baş direktor qeyd edib ki, dəfələrlə ticarət mərkəzində qaraçı görünüşlü gənclər görüb, onlar oyun aparatlarında pulsuz oynayır, sanitar qovşaqların divarlarında yazılar yazırmışlar. Onun sözlərinə görə, bu şəxslər barəsində polisə şikayət edilsə də, onlar saxlanıldıqdan sonra dərhal buraxılıblar.

